# Beynəlxalq QHT-lər COP29-a böyük maraq göstərirlər

**Bonn şəhərində keçirilən BMT-nin İqlim Dəyişmələri Konfransında dövlət və hökumət təmsilçiləri, beynəlxalq təşkilatlarla yanaşı, qeyri-hökumət təşkilatları da əsas iştirakçı seqmentini təşkil edir və onlar arasında Azərbaycanın evsahibliyi edəcəyi COP29-a böyük maraq mövcuddur. Onlar Bakıda qlobal diskussiyalara - COP29-a ciddi hazırlaşırlar və Azərbaycandan olan tərəfdaşları ilə yaxından əməkdaşlıq qurmağa çalışırlar.**

AZƏRTAC xəbər verir ki, aparılan söhbətlər zamanı xarici QHT-lər Azərbaycanın iqlim dəyişmələri ilə mübarizəsini yüksək qiymətləndirib, COP29-un sədri kimi ölkəmizə yüksək etimad göstərdiklərini, onları narahat edən mövzular üzrə uğurlu danışıqlar aparılacağına inandıqlarını bildiriblər. Onlar həmçinin Bakı Enerji Həftəsini yaxından izlədiklərini, Azərbaycanın yaşıl düşüncə əsasında yürütdüyü yeni enerji siyasətini yüksək dəyərləndiriblər.

Bildirilib ki, iqlim dəyişmələri gündəlik həyatımızın bütün sahələrinə təsirini göstərir və vətəndaş cəmiyyəti bu proseslərə biganə qalmır. Ətraf mühit, iqlim maliyyəsi, gənclər, səhiyyə və digər sahələr üzrə ixtisaslaşmış qeyri-hökumət təşkilatları iqlim icmasının mühüm tərkib hissəsi kimi COP29-da müxtəlif mövzuların müzakirəsində fəal iştirak edəcəklər.

Nyu York Universitetinin professoru Corc Terson bildirib ki, COP29-u səbirsizliklə gözləyir, çünki sağlamlıq məsələlərini iqlimlə bağlı danışıqlarda müzakirəyə çıxarmaq niyyətindədir. O, COP29-da öz araşdırmalarından, havanın çirklənməsinin insan sağlamlığına vurduğu zərər barəsində yeni elmi araşdırmalar əsasında hazırlanan misallar təqdim etmək istəyir və Bakıya səfərinə böyük ümidlər bəsləyir. Çünki iqlim dəyişikliklərinə diqqət artırılsa və havanın çirklənməsinin qarşısı alınsa, dünyada insanların sağlamlığına müsbət təsir göstərmək mümkün olacaq.

Qlobal Hüquq Fikirləri Cəmiyyətinin təsisçisi və prezidenti Raoman Smita Azərbaycanda keçiriləcək COP29-la bağlı gözləntilərinin böyük olduğunu deyib. O, ümidvar olduğunu bildirib ki, Azərbaycan və digər iştirakçı ölkələr iddialı iqlim planlarına, icra edilə bilən tədbirlərə diqqət yetirəcəklər və Paris Sazişi ilə uzlaşmaq üzərində işləyəcəklər. Digər QHT-lərin təmsilçiləri də Bakıda keçiriləcək COP29 çərçivəsində öz sahələri üzrə mövzuları diqqət mərkəzində saxlayacaqlarını, müzakirələrdə fəal şəkildə iştirak edəcəklərini deyiblər. Onlar dünyanın ən böyük beynəlxalq tədbirlərindən biri olan COP-u qəbul etdiyinə, danışıq və müzakirələrin Bakıda aparılmasına imkan yaratdığına görə Azərbaycana minnətdarlıqlarını bildiriblər.

Azərbaycan.- 2024.- 9 iyun, № 121.- S.9.